AKTIN NÖVÜ	**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI**
QƏBUL EDİLDİYİ TARİX	**24.12.2012**
QEYDİYYAT NÖMRƏSİ	**315**
ADI	**“Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları”nın təsdiq edilməsi barədə**
RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ	**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2012, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 1379)**
QÜVVƏYƏ MİNMƏ TARİXİ	**24.12.2012**
AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU	**180.040.010**
HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ	**14201212240315**
HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX	**26.12.2012**

“Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları”nın təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı”nın və “Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanının 3.1.15-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alIr:**

1. “Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə

Bakı şəhəri, 24 dekabr 2012-ci il
315

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2012-ci il 24 dekabr tarixli 315 nömrəli qərarı ilə
təsdiq edilmişdir

Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi

QAYDALARI

1. Ümumi müddəa

1.1. Bu Qaydalar “Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı”nın və “Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanının 3.1.15-ci yarımbəndinə uyğun olaraq hazırlanmışdır.

2. Texniki vasitə və avadanlıqlar və onlardan istifadə

2.1. Mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsi üçün aşağıdakı texniki vasitə və avadanlıqlardan istifadə edilir:

2.1.1. mühafizə çəpərlərindən, girişə avtomatlaşdırılmış nəzarət sistemindən və kodlu kilidlərdən;

2.1.2. baxış üçün xüsusi texniki vasitələrdən (avadanlıqlardan);

2.1.3. perimetr boyunca siqnalizasiyadan, mühafizə siqnalizasiyasından və qapalı videomüşahidə sistemlərindən;

2.1.4. torpaq və ya qumdan hazırlanmış müdafiə sığınacaqlarından.

2.2. Hər bir hava limanı aşağıdakı xüsusi texniki vasitələrlə (avadanlıqlarla) təchiz edilir: [1]

2.2.1. stasionar rentgen *avadanlığı* - əl yükünün, baqajın və yükün daxili tutumuna monitorun ekranında kölgəli görünüş yaratmaqla təhlükəsizlik baxımından nəzarət olunması üçün;[2]

2.2.2. daşınan *rentgen avadanlığı* - hava gəmisinin bortunda və hava limanının nəzarət olunan zonalarında tanınmayan predmetlərin, məmulatların, qurğuların açılmadan və yeri dəyişilmədən identifikasiyası üçün;[3]

2.2.3. stasionar (tağlı) metalaxtaran - insanın bədənində və geyimində metal, odlu və soyuq silahların aşkarlanması üçün;

2.2.4. portativ (əl) metalaxtaran - stasionar metalaxtaranlarla qeydə alınmış metal əşyaların aşkar edilməsi məqsədi ilə təkrar baxış üçün, həmçinin stasionar metalaxtaranlar olmayan məntəqələrdə hava gəmisinin bortunda və trapın yanında sərnişinlərə baxış üçün;

2.2.5. bədən və ayaqqabı skaner portalları;

2.2.6. telefon *abunəçi* nömrəsinin fiksasiya edilməsi üçün aparat - anonim telefon informasiyasının müəllifinin müəyyən edilməsi məqsəd ilə istifadə edilir;[4]

2.2.7. partlayıcı maddələrin (mayelər daxil olmaqla) və qurğuların aşkarlanması üçün qurğu və detektor;

2.2.8. partlayıcı maddələrin buxarını aşkarlayan qurğu və detektor;

2.2.8-1. mayelərin, aerozolların və qazların aşkarlanması üçün qurğular;

2.2.8-2. kompüter tomoqrafiyası – rentgenoloji müayinə üsulu ilə obyektin daxili quruluşunu müəyyənetmə vasitəsi;[5]

2.2.9. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – NRYTN yanında DMAA) ilə razılaşdırmaqla, digər avadanlıq.[6]

2.3. Xüsusi texniki vasitələr onların ölçü parametrlərinə və istismar şərtlərinə (temperatur, rütubətlilik) cavab verən otaqlarda (baxış məntəqələrində) yerləşdirilir.

2.4. Mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsi üçün texniki vasitələrin və avadanlıqların daim işlək vəziyyətdə saxlanılması üçün onların istismarı aviasiya təhlükəsizliyi xidmətinin sertifikatlaşdırılmış personalı tərəfindən həyata keçirilir.

2.5. Texniki vasitələrə və avadanlıqlara texniki xidmət xüsusi texniki bölmələrin sertifikatlaşdırılmış personalı tərəfindən göstərilir.

2.6. Xüsusi texniki vasitələrə keyfiyyətli texniki xidmət göstərilməsi üçün aşağıdakı məlumatlar nəzərə alınmalıdır:

2.6.1. hava limanında quraşdırılmış avadanlıqların siyahısı və onların yerləşdirilməsi;

2.6.2. hər bir avadanlığın texniki göstəriciləri (tipi, seriya nömrəsi, istehsalçısı) və quraşdırılması barədə məlumat (tarixi, avadanlığın quraşdırılmasını təmin edən təşkilatın adı, cavabdeh şəxsin soyadı və s.);

2.6.3. avadanlığın hər bir vahidi üzrə təftiş yoxlamaları barədə məlumatlar;

2.6.4. texniki xidmət göstərilməsinə cavabdeh şəxslər haqqında məlumat;

2.6.5. dövri yoxlamaların proqramına dair müfəssəl məlumatlar;

2.6.6. texniki təmir haqqında məlumat (yararsız, təmir edilmiş, yaxud dəyişdirilmiş ehtiyat hissələri barədə məlumat).

2.7. Aviasiya təhlükəsizliyi nəzarəti üçün rentgen qurğularından, onların radiasiya təhlükəsizliyi üzrə normalara uyğun olduğu halda istifadə edilir.

2.8. Hava limanının və aviamüəssisələrin aviasiya təhlükəsizliyi proqramlarında xüsusi texniki vasitələrə texniki xidmət və onların təmiri üzrə qrafiklər və həmin texniki vasitələrin yoxlanmasının dövriliyi haqqında məlumatlar əks olunur.

2.9. Partlayıcı maddələrin aşkarlanması üçün avadanlıqlara texniki xidmət *NRYTN yanında DMAA* tərəfindən müəyyən edilmiş qaydada sınaq nümunələrindən və ya qurğulardan istifadə etməklə, onların işçi göstəricilərinin ~~müntəzəm~~ ölçülməsi yolu ilə həyata keçirilir.[7]

2.10. Təsdiq edilmiş sınaq nümunələrindən istifadə etməklə avadanlıqların dövri yoxlanılması *NRYTN yanında DMAA-nin* müəyyən etdiyi qaydada həyata keçirilir.

2.11. Stasionar (tağlı) metalaxtaranların sınaq nəticələri həmin detektorun istifadə edildiyi müddət ərzində hava limanında saxlanılır və *NRYTN yanında DMAA-nın tələbinə əsasən* təqdim edilir.[8]

2.12. Hava limanlarının təhlükəsizliyinin təmin edilməsi üçün texniki vasitələr və avadanlıqlarla təchizatı aviasiya təhlükəsizliyi xidmətinin təqdimatı əsasında hava limanları tərəfindən həyata keçirilir.

2.13. Hava limanlarında baxış keçirilməsi və mühafizə üzrə xüsusi texniki vasitələrin istismarı üzrə təlimatlar *NRYTN yanında DMAA* tərəfindən təsdiq olunur.

3. Aviasiya təhlükəsizliyinin təminatı sahəsində istifadə edilən xüsusi texniki vasitələrə dair tələblər

3.1. Alınan sistemlərin istismarı ilə əlaqədar müvafiq işləri həyata keçirən personallara istismar qaydalarının öyrədilməsinə dair qısa kursun keçirilməsi nəzərdə tutulur.

3.2. Baxışdan keçirilməsi nəzərdə tutulmuş sərnişinlərin və predmetlərin, həmçinin onların baqajının emalı üzrə, dəqiqədə adamların sayı ilə, saatda baqaj yerlərinin sayı ilə və s. ifadə edilən yüksək buraxılış qabiliyyətinə malik partlayıcı maddələrin aşkarlanması üçün nəzərdə tutulmuş sistemlər quraşdırılır.

3.3. Aviasiyanın təhlükəsizliyi məqsədləri ilə istifadə olunan sistem hər dəfə sərnişinlərə və obyektlərə baxışa başlamazdan əvvəl, onun *beynəlxalq* standartlara uyğunluğunun və qurğuların düzgün işləməsinin təmin edilməsi üçün daimi yoxlanılır.[9]

3.4. Aviasiya təhlükəsizliyi məqsədləri üçün istifadə edilən avadanlıqların yoxlanılması bu avadanlıqlarla işləyən və onların düzgün işləməsinə məsuliyyət daşıyan aviasiya təhlükəsizliyi personalı tərəfindən daimi həyata keçirilir.

3.5. Bu yoxlamalar aviasiya təhlükəsizliyi personalı üçün asan başa düşülən olmalıdır və ixtisaslı texniki mütəxəssislər tərəfindən aradan qaldırılması nəzərdə tutulmuş nasazlıqların aşkarlanmasına imkan yaratmalıdır.

3.6. İstənilən hava limanında xüsusi texniki vasitələr sıradan çıxdıqda baxışın fasiləsiz keçirilməsinin təmin edilməsinə dair fəaliyyət planı işlənib hazırlanır və təsdiq edilir.

3.7. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın həyata keçirilməsinə köməklik məqsədi ilə tətbiq olunması üçün yararlı hesab edilən, tağlı metal detektorlarının bütün modellərinin qəbul-təhvil sınağının və daim yoxlanmasının standart prosedurlarının müəyyən edilməsinə nəzarəti *NRYTN yanında DMAA həyata* keçirir.

4. Texniki təhlükəsizliyə və sağlamlığın qorunmasına dair tələblər

4.1. Rentgen qurğularından istifadə qüvvədə olan qanunvericiliyə uyğun olaraq tətbiq edilir.

4.2. Operatorların və yaxında olan personalların təhlükəsizliyinin təmin edilməsi üçün ionlaşdırılmış şüalanmanın yol verilən səviyyəsinin müəyyən edilmiş norması dəqiq göstərilir və ona riayət edilməsinə nəzarət edilir.

5. Kombinə edilmiş sınaq nümunəsindən istifadə etməklə *ümumi* yoxlamalar[10]

5.1. Kombinə edilmiş sınaq nümunəsindən ("STP") istifadə etməklə baxış keçirilməsi məqsədi ilə tətbiq edilən rentgen avadanlıqlarının *ümumi* yoxlanması, Dövlət Proqramı çərçivəsində daimi əsaslarla tətbiq edilən rentgen avadanlıqlarının işçi xarakteristikasının yoxlanması üçün nəzərdə tutulmuşdur.

5.1-1. Kombinə edilmiş sınaq nümunəsindən istifadə etməklə rentgen avadanlıqlarının ümumi yoxlanılması NRYTN yanında DMAA-nın müəyyən etdiyi qaydada həyata keçirilir, onların yoxlanılmasının dövriliyi isə aeroportun aviasiya xidmətləri tərəfindən müəyyən edilir.[11]

5.2. Kombinə edilmiş sınaq nümunəsi istismar edilən avadanlıqların görüntülərinin lazımi səviyyədə olmasını və tələb edilən qaydada işləməsinin təmin etdiyini müəyyənləşdirmək üçün gündəlik keçirilən vaxtaşırı dövri sınaq üçün nəzərdə tutulmuş vasitə qismində istifadə edilir.

5.3. Kombinə edilmiş sınaq nümunəsi operator tərəfindən əl yükünə və baqaja baxış üçün istifadə edilən rentgen

sistemlərinin xarakteristikasının beynəlxalq standartlara uyğun olub-olmamasını təyin edir.

5.4. Kombinə edilmiş sınaq nümunələrindən istifadə zamanı əldə edilən nəticələr nəzərə alınır və sınağın məlumat cədvəlində qeyd edilir.

5.5. Sınağın nəticələri xüsusi jurnallarda qeyd edilir.

5.6. Hər həftə kombinə edilmiş sınaq nümunələrindən istifadə edilməsinin nəticələri barədə müfəssəl hesabat tərtib edilir.

5.7. Belə prosedurlar rentgen müşahidələrinin görüntüləri haqqında məlumatların qeydiyyat cədvəlinə əlavə edilməsini nəzərdə tutur.

5.8. Kombinə edilmiş sınaq nümunəsindən istifadə edən personal müvafiq hazırlıq keçir.

5.9. Rentgen avadanlıqlarının xarakteristikasının yoxlanması qaydası təhlükəsizliyə nəzarət funksiyalarını həyata keçirən rəhbər heyətin və ya vəziyyətdən asılı olaraq operatorların təkrar hazırlanmasının tərkib hissəsi kimi hazırlığın ilkin mərhələsinə əlavə edilir.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 21 yanvar 2019-cu il tarixli **19** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 163)**
2. 15 iyul 2019-cu il tarixli **311** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 iyul 2019-cu il, 154 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1333)**
3. 12 aprel 2021-ci il tarixli **92** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 396)**
4. 8 may 2021-ci il tarixli **144** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 may 2021-ci il, 100 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5, maddə 523)**

QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 21 yanvar 2019-cu il tarixli **19** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 163)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 2.2-ci bəndində "**Dövlət Mülki Aviasiya Administrasiyasının (bundan sonra – DMAA)** " sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yanında Dövlət Mülki Aviasiya Agentliyinin (bundan sonra – Agentlik)**" sözləri ilə, 2.9-cu, 2.10-cu, 2.11-ci, 2.13-cü və 3.7-ci bəndlərində ismin müvafiq hallarında "**DMAA**" abreviaturası ismin müvafiq hallarında "**NRYTN yanında DMAA**" sözləri ilə əvəz edilmişdir.

12 aprel 2021-ci il tarixli **92** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 396)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 2.2-ci bəndinin birinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.2. Hər bir hava limanı Azərbaycan Respublikası *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yanında Dövlət Mülki Aviasiya Agentliyinin (bundan sonra – Agentlik)* sertifikatlaşdırdığı və Azərbaycan Respublikasının dövlət standartlarına uyğun olan aşağıdakı xüsusi texniki vasitələrlə (avadanlıqlarla) təchiz edilir:~~

[2] 12 aprel 2021-ci il tarixli **92** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 396)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 2.2.1-ci yarımbəndində "**-televizor intraskopu**" sözləri "**avadanlığı**" sözü ilə əvəz edilmişdir.

[3] 12 aprel 2021-ci il tarixli **92** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 396)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 2.2.2-ci yarımbəndində "**intraskop**" sözü "**rentgen avadanlığı**" sözləri ilə əvəz edilmişdir.

[4] 15 iyul 2019-cu il tarixli **311** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 iyul 2019-cu il, 154 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1333)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 2.2.6-cı yarımbəndində "**abonent**" sözü "**abunəçi**" sözü ilə əvəz edilmişdir.

[5] 12 aprel 2021-ci il tarixli **92** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 396)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"na yeni məzmunda 2.2.8-1-ci və 2.2.8-2-ci yarımbəndlər əlavə edilmişdir.

[6] 12 aprel 2021-ci il tarixli **92** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 396)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 2.2.5-ci və 2.2.9-cu yarımbəndləri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.2.5. skaner portalı - insan bədənində gizlədilmiş əşyaların aşkar edilməsi üçün avadanlıq;~~

~~2.2.9. aviasiya təhlükəsizliyi sahəsində istifadəsinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada icazə verilən beynəlxalq və yerli tələblərə cavab verən digər avadanlıqlar.~~

[7] 12 aprel 2021-ci il tarixli **92** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 396)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 2.9-cu bəndindən "**müntəzəm**" sözü çıxarılmışdır.

[8] 12 aprel 2021-ci il tarixli **92** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 396)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 2.11-ci bəndində "**bu nəticələr qeydiyyata alındıqdan sonra NRYTN yanında DMAA-ya**" sözləri "**NRYTN yanında DMAA-nın tələbinə əsasən**" sözləri ilə əvəz edilmişdir.

[9] 8 may 2021-ci il tarixli **144** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 18 may 2021-ci il, 100, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5, maddə 523)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 3.3-cü bəndində "**müəyyən edilmiş**" sözləri "**beynəlxalq**" sözü ilə əvəz edilmişdir.

[10] 12 aprel 2021-ci il tarixli **92** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 396)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 5-ci hissəsinin adında və 5.1-ci bəndində "**dövri**" sözü "**ümumi**" sözü ilə əvəz edilmişdir.

[11] 12 aprel 2021-ci il tarixli **92** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 396)** ilə "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"na yeni məzmunda 5.1-1-ci bənd əlavə edilmişdir.